2018-ci ilin yanvar-oktyabr aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 827 milyon 648 min 800 manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Sənaye istehsalının 96,2 faizi malların, 3,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 40 milyon 787 min 100 manatlıq, qeyri-dövlət sektorunda 786 milyon 861 min 700 manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikanın sənaye müəssisələrində 16550 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz artaraq 382 manat olmuşdur.